


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 2 (24.139)

*7 yanvar 2023-cü il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Yeni ünvanda gün ərzində beş min sahibkara mərkəzləşdirilmiş qaydada dövlət və biznes xidmətləri göstəriləcək

### *Prezident İlham Əliyev "Bakı KOB evi"nin açılışında iştirak edib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bakı KOB evi"nin açılışında iştirak edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov paytaxtın Nərimanov rayonunda yerləşən "Bakı KOB evi" barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, sayca 3-cü olan "Bakı KOB evi"nin ümumi sahəsi 11 min 262 kvadratmetrdir. Üçmərtəbəli binanın ilk iki mərtəbəsi



sahibkarlara xidmət göstərilməsi, üçüncü mərtəbə isə işçi heyət üçün nəzərdə tutulub. "Bakı KOB evi" gün ərzində beş min sahibkara xidmət göstərmək potensialına malikdir. Binada yaradılmış görüş, təlim, startap, mediasiya otaqları və konfrans zalı da sahibkarların xidmətində olacaq.

"Bakı KOB evi"ndə sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmətlər göstəriləcək. Sahibkarlar fəaliyyət üçün zəruri olan biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes-planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulma, bank, sığorta və digər məsələlərlə bağlı "Bakı KOB evi"nə müraciət edə bilərlər. Bununla yanaşı, "Bakı KOB evi"ndə yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında gömrük və idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər də təqdim ediləcək.

Diqqətə çatdırıldı ki, KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir.

Hazırda fəaliyyətdə olan Xaçmaz və Yevlax KOB evlərində indiyədək sahibkarlara 170 mindən çox xidmət göstərilib ki, bu xidmətlərin 165 mindən çoxu dövlət-biznes (G2B), 9 minə yaxını isə biznes-biznes (B2B) xidmətləridir. Sahibkarların KOB evlərinin xidmətlərindən



məmnunluq göstəricisi 98 faizdir.

Qeyd edək ki, Azərbaycanın davamlı iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın, xüsusilə kiçik və orta biznesin rolunun artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Ölkəmizdə özəl





sektorun inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlərin davamı olaraq dövlətimizin başçısının 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb.

KOBİA tərəfindən sahibkarlara informasiya, məsləhət, təlim-tədris, maraqların müdafiəsi, bazarlara və maliyyə resurslarına çıxışın yaxşılaşdırılması, dövlət və özəl qurumlarla əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərilir. Bu dəstək və xidmətlər KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edən geniş infrastruktur şəbəkəsi – KOB dostları, KOB inkişaf mərkəzləri və KOB evləri vasitəsilə həyata keçirilir. Belə ki, KOB inkişaf mərkəzləri KOB-ların biznes biliklərini artırmaq üçün ödənişsiz olaraq informasiya, məsləhət, təlim və biznes-planın hazırlanması xidmətlərini təklif edir. Ölkənin regionlarında KOB-ların maraqlarının müdafiəsi, lazımi dəstək və xidmətlərə çıxışı 38 şəhər və rayonda fəaliyyət göstərən "KOB dostu" şəbəkəsi vasitəsilə reallaşdırılır.

Bundan başqa, KOBİA tərəfindən mikro və kiçik sahibkarlıq subyektlərinə onları innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edən "Startap" şəhadətnaməsi verilir, daxili bazar araşdırmasının aparılmasına, təhsil, elm, tədqiqat və dəstək layihələrinə maliyyə dəstəyi göstərilir, onların ödənişsiz olaraq sərgilərdə iştirakına və ticarət şəbəkələrinə çıxışına dəstək təmin olunur.

**AZƏRTAC**

# Culfa rayon sakinləri ilə görüş

Yanvarın 5-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda olub, sakinlərlə görüşüb, onların müraciətləri dinlənilib.

Əvvəlcə Culfa şəhərindəki şəhidlər abidəsi və Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət edilib, gül dəstələri qoyulub.

Səlahiyyətli nümayəndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin salamlarını rayon sakinlərinə çatdırıb.

Görüşdə 138 rayon sakininin şikayəti dinlənilib, 273 sakinin yazılı şikayəti isə baxılması üçün götürülüb.

# Naxçıvanda ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə bağlı müşavirə keçirilib





Yanvarın 6-da Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə bağlı müşavirə keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli müşavirədə çıxış edərək deyib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasəti və ortaya qoyduğu siyasi iradə bu gün respublikamızda ən böyük infrastruktur layihələrindən biri olan Zəngəzur layihəsinin həyata keçirilməsini labüd edib. Səlahiyyətli nümayəndə Azərbaycan Respublikası və onun Naxçıvan Muxtar Respublikası, eyni zamanda region üçün Zəngəzur layihəsinin əhəmiyyətini qeyd edib. Ölkəmizdə rəsmi statistikanın inkişafı ilə bağlı görülən işlərdən danışılıb, bu sahədə müəyyənləşdirilən bir sıra vəzifələrin Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi tərəfindən düzgün icra olunmadığı vurğulanıb. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının müəyyən etdiyi istiqamətə uyğun olaraq 28 dekabr 2022-ci il tarixdə Naxçıvanda bununla bağlı müvafiq müşavirə keçirilib, Mərkəzi Qərargah yaradılıb, Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planına uyğun olaraq yerlərdə icra hakimiyyətləri başçılarının rəhbərliyi ilə 8 yerli qərargah da yaradılıb. Bugünkü müşavirədə təsərrüfatbaşına uçot kitablarının doldurulması işinin təşkili ilə bağlı şəhər, rayon icra hakimiyyətləri qarşısında duran vəzifələr izah olunacaq, məsul şəxslər təlimatlandırılacaqdır.



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdir müavini İbrahim Mustafayev bildirib ki, ötən müddətdə Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə bağlı bir sıra tədbirlər görülüb, lakin bəzi zəruri tədbirlərin, müəyyən addımların atılması və layihənin sistemli şəkildə həyata keçirilməsi üçün əlavə tədbirlər də görülməlidir. Qeyd olunub ki, həyata keçirilən tədbirlərdən sonra muxtar respublikada statistika üzrə real göstəricilər informasiya sistemində öz əksini tapacaqdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov "Ev təsərrüfatlarının uçotu kitabı"nın proqram təminatının üstünlükləri haqqında ətraflı məlumat verib. Bildirilib ki, proqram təminatı yerlərdə məlumatlar daxil edilən kimi hər bir qəsəbə, kənd üzrə məlumatların ölkənin digər şəhər və rayonları üzrə avtomatik rejimdə müqayisə olunmasına, təkrarçılıq halları varsa onların aradan qaldırılmasına imkan verəcək.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Vaqif Rəsul Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ildə təsdiq edilmiş "Ev təsərrüfatlarının uçotu kitabı"nda olan göstəricilərlə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təsdiq etdiyi kitab arasında müəyyən fərqliliklərin olduğunu, hazırda isə bu fərqliliklərin aradan qaldırılması istiqamətində iş aparıldığını deyib.

Sonra Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin şöbə müdiri Gündüz Məmmədov rayon (şəhər) icra hakimiyyəti başçılarının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində "Ev təsərrüfatlarının uçotu kitabı" üzrə məlumatların elektron məlumat bazasına daxil edilməsi qaydalarını slayd vasitəsilə müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

# Əlahiddə Ümumqoşun Orduda yeni tikilən hərbi obyektlərlə tanışlıq olub

Yanvarın 6-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yeni inşa edilən "Naxçıvan" Bərpa-İstehsalat Hərbi Kompleksində olub.

Keçirilən brifinqdə slayd vasitəsilə kompleksdə yaradılan şərait və imkanlar barədə ətraflı məlumat verilib, tikinti prosesindən hazırlanmış videoçarx nümayiş olunub.

Sonra "Naxçıvan" Bərpa-İstehsalat Hərbi Kompleksi ilə əyani tanışlıq zamanı bildirilib ki, kompleksdə 1 mərkəz, 3 şöbə, 4 bölmə, 8 sex, 10 sahə yaradılıb. Kompleks, əsasən, Türkiyə Respublikasından gətirilən 103 adda dəzgah və cihaz, 8 adda sınaq qurğusu, 132 adda digər təmir avadanlıqları ilə təchiz edilib. Burada silahların, avtomobil texnikalarının, artilleriya və hava hücumundan müdafiə vasitələrinin, zirehli tank texnikalarının, elektron və rabitə avadanlıqlarının, mühəndis texnikalarının və aqreqatlarının təmiri, mexanikləşdirilmiş emal sexləri fəaliyyət göstərəcək. Silahların təmiri sexində ən son texnoloji avadanlıqlarla atıcı silahların qumla təmizlənməsi və kimyəvi üsulla yenidən rənglənməsi işləri də aparılacaq. Qeyd olunub ki, kompleksdə bütün növ texnikaların mühərriklərini əsaslı şəkildə təmir etdikdən sonra müasir elektron vasitələrlə sınaqdan keçirmək mümkündür. Həmçinin texnikalarda olan yanacaq, hava, yağ və elektrik sistemləri avadanlıqları təmir prosesi keçdikdən sonra yeni nəsil sınaq qurğuları ilə yoxlanılacaq. Elektron və rabitə avadanlıqlarının təmiri sexində xüsusi antistatik otaqlarda elektron avadanlıqların və optik gecəgörmə cihazlarının təmiri və sınaqdan keçirilməsi mümkündür.



Kompleksin istehsalat bölməsində isə plastik, şüşə və mebel emalı sexləri fəaliyyət göstərəcək. Burada avtomobillərin, zirehli texnikaların, rabitə və avtomatlaşdırılmış idarəetmə sistemlərinin ehtiyat hissələri üçün saxlanc yerləri də yaradılıb.

Həmin gün Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün tikilən əsgəri-məişət kompleksi ilə də tanışlıq olub. Məlumat verilib ki, ən müasir tələblər səviyyəsində inşa olunan 4 mərtəbəli binada əsgər yataqxanası, yeməkxana, çay otaqları, zabitlər üçün iş və sinif otaqları vardır. Binada fərdi qazanxana quraşdırılıb və istilik sistemi çəkilib.

Əlahiddə Ümumqoşun Orduda real döyüş şəraitinə uyğun inşa edilən təlim sahəsində atış çalışmalarının, müxtəlif ixtisaslar üzrə dərs və məşğələlərin keçirilməsi, döyüş tapşırıqlarının tədris olunması, eləcə də praktiki məşq etdirilməsinin nəzərdə tutulduğu vurğulanıb.

**"Şərq qapısı"**

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN

## Q Ə R A R I

### Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasının çağırılması haqqında

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 18-ci maddəsinin I hissəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

I. Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyası 2023-cü il yanvar ayının 10-da saat $11^{00}$-da Naxçıvan şəhərində çağırılsın.

II. Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilsin:

1. 2022-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin təsdiq edilməsi
3. Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsinin təsdiq edilməsi
4. İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsinin təsdiq edilməsi

III. Sessiyanın iclasına aidiyyəti təşkilatların rəhbərləri və dövlət mətbuat orqanlarının nümayəndələri dəvət olunurlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi Sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 6 yanvar 2023-cü il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin rəhbərliyi Naxçıvandakı sərhəd-gömrük buraxılış məntəqələrində olub





Dünən Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev və Dövlət Gömrük Komitəsi sədrinin I müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırovun rəhbərliyi ilə hər iki qurumun nümayəndə heyətləri Naxçıvan Muxtar Respublikasındakı sərhəd-gömrük buraxılış məntəqələrində olub.

Dövlət Gömrük Komitəsi Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin verdiyi məlumata görə, Azərbaycanın Türkiyə ilə sərhədində yerləşən Sədərək, Azərbaycanın İranla sərhədində yerləşən Culfa və Şahtaxtı buraxılış məntəqələrində mövcud infrastrukturun vəziyyəti, əməkdaşların iş şəraiti ilə yaxından tanış olan rəsmilər xidmət səviyyəsinin daha da yüksəldilməsi, gömrük və sərhəd nəzarətinin səmərəli şəkildə reallaşdırılması, sərhədkeçmə proseslərinin sürətli həyata keçirilməsi, eləcə də beynəlxalq tranzitin daha da asanlaşdırılması ilə bağlı tapşırıq və tövsiyələrini veriblər.

**Xəbərlər şöbəsi**

## Yusif Yusifov: "Təsərrüfatbaşına uçot sənədlərinin tətbiqi bu sahədə statistikanın təkmilləşdirilməsinə, eyni zamanda digər məqsədlər üçün məlumatların ilkin mənbədən əldə edilməsinə imkan verəcək"



Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının uçotunun aparılması işinin təşkili ilə bağlı müşavirə keçirilib. Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən müşavirənin gündəliyindəki məsələ təsərrüfatbaşına uçot kitablarının doldurulması işinin təşkili ilə bağlı şəhər, rayon icra hakimiyyətləri qarşısında duran vəzifələrin müəyyən edilməsi olub. Müşavirədə çıxış edən ***Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov*** müzakirə olunan məsələ ilə bağlı fikirlərini "Şərq qapısı" qəzetinin oxucuları ilə bölüşüb:

– Bu gün biz təsərrüfatbaşına uçot sənədlərinin tətbiqinə dair müşavirə keçirdik. Müşavirədə təsərrüfatbaşına uçot kitablarının doldurulması ilə bağlı ətraflı məlumatlar verildi. Düşünürük ki, təsərrüfatbaşına uçot sənədlərinin tətbiqi həm bu sahədə statistikanın təkmilləşdirilməsinə, eyni zamanda digər məqsədlər üçün məlumatların ilkin mənbədən əldə edilməsinə imkan verəcək. Həmçinin kənd təsərrüfatı, eləcə də şəhər yerləri üzrə həm əhali statistikası, həm də digər sahələrlə bağlı daha müfəssəl məlumatların əldə edilməsinə şərait yaradacaq. Müşavirədə zəruri tövsiyə və tapşırıqlar verildi. Qısa müddət ərzində tərəfimizdən də metodoloji dəstək göstəriləcək və bu məlumatların elektron informasiya sisteminə daxil edilməsi, onların emalı ilə bağlı məsələlər öz həllini tapacaq. Əsas məsələ təsərrüfatbaşına uçot sənədlərinin bütün bölmələrinin faktiki göstəricilər əsasında həyata keçirilməsi və onların tərtib edilməsidir.

**Nail ƏSGƏROV**

## Naxçıvanda bir qrup keçmiş inşaatçı Daxili İşlər Nazirliyinə müraciət edib



Naxçıvan şəhərində tikinti sektorunda çalışmış və sonradan ixtisara düşmüş bir qrup işçi işdən çıxarılmaları və əməkhaqlarının verilməməsi ilə bağlı Daxili İşlər Nazirliyinə müraciət edib. Onlar Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Süleyman Neymətov tərəfindən qəbul edilib.

Daxili İşlər Nazirliyinin qarşısına toplaşan keçmiş inşaatçılar bildiriblər ki, 3 ildən artıqdır, sözügedən problemləri ilə bağlı aidiyyəti qurumlara müraciət edirlər. Lakin onların şikayətlərinə baxılmayıb və onlara yeni işlə təmin olunacaqları ilə bağlı yalan vədlər verilib. Etirazçılar iddia edirlər ki, Maliyyə Nazirliyi tərəfindən onlara ayrılan əməkhaqqı mənimsənilib, işsizlikdən sığorta fondundan da heç bir ödəniş edilməyib.

Daxili işlər naziri inşaatçıları qəbul edib və onların problemlərinin tezliklə həll ediləcəyini bildirib.

Qeyd edək ki, gün ərzində inşaatçılarla yanaşı, şikayəti olan digər sakinlər də qəbul edilib və onların müraciətinə baxılıb.

**Xəbərlər şöbəsi**

## Əmək pensiyalarının minimum məbləğinin artırılması muxtar respublika üzrə 4 min 600 pensiyaçıya şamil ediləcəkdir



Ölkəmizdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya, müavinət və digər ödənişlərin minimum məbləğlərinin artırılması istiqamətində görülən tədbirlər dövlətin əsas prioritetlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" 5 yanvar 2023-cü il tarixli Sərəncamı da əhalinin sosial müdafiəsinin gücləndirilməsinə yönəldilən tədbirlərin davamıdır. Sərəncama əsasən əmək pensiyasının minimum məbləğinin artırılaraq 280 manat müəyyən olunması nəzərdə tutulur.

Sərəncama uyğun olaraq əmək pensiyasının minimum məbləğindən aşağı məbləğdə əmək pensiyası alan bütün növ əmək pensiyaçılarının pensiyalarının məbləği 280 manata çatdırılacaqdır. Beləliklə, minimum əmək pensiyasının məbləği 16,7 faiz artırılır ki, bu da bir neçə ildir, minimum pensiyanın yüksək məbləğdə artırılmasının göstəricisidir. Minimum pensiyanın artırılması muxtar respublika üzrə, ümumilikdə, 4 min 600 əmək pensiyaçısına şamil ediləcəkdir.

Ölkə başçısının əhalinin sosial rifah halının yaxşılaşdırılmasına xidmət edən tədbirlərin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən müvafiq işlər həyata keçiriləcəkdir və əmək pensiyalarının minimum məbləğinin artırılaraq pensiyaçılara ödənilməsi təmin ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## "Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də..."




Prezident cənab İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində 2022-ci ildə ölkə həyatında baş verən mühüm hadisələri xatırlatmaqla yanaşı, görüləcək mühüm işlərin anonsunu da verdi. Bunlardan biri də Zəngəzur dəhlizi ilə bağlı idi. Dövlət başçısının ***"Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də"*** fikri layihənin reallaşdırılmasında Azərbaycanın nə qədər qətiyyətli olduğunu bir daha ortaya qoydu.

Ölkəmizin qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan, Rusiya və Ermənistan liderlərinin birgə imzaladıqları 10 noyabr Bəyanatının 9-cu bəndində açıq mətnlə qeyd olunur ki, tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcəkdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, ötən müddət ərzində Ermənistan tərəfindən bu istiqamətdə nəinki heç bir addım atılmayıb, hətta dəhlizin açılmaması üçün vaxtaşırı olaraq dövriyyəyə əsassız informasiyalar buraxılıb. Ermənistandan fərqli olaraq isə Azərbaycan hər zaman ən yüksək səviyyələrdə Zəngəzur dəhlizinin açılmasını diqqət mərkəzində saxlayıb, bu sahədə mühüm işlər görülüb, ölkə başçısı tərəfindən indiyədək çox sayda açıqlamalar verilib. Elə bir neçə gün bundan əvvəl Azərbaycan Prezidentinin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciətində bu amili bir daha dilə gətirməsi də ortaya qoyulan güclü iradənin nəticəsidir: ***"Zəngəzur dəhlizinin açılması ilə əlaqədar genişmiqyaslı işlər aparılır, dəmir yolları, avtomobil yolları çəkilir. Zəngəzur dəhlizinin açılması mütləq olmalıdır, Ermənistan bunu istəsə də, istəməsə də. Biz ortaya güclü iradə qoymuşuq, bütün işlər plan üzrə gedir. Bizim tələbimiz əsaslıdır və ədalətlidir. Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bizim bağlantımız olmalıdır və olacaqdır".***

Müraciətin bu hissəsində həm də erməni və havadarlarına bir xəbərdarlıq var. Aradan keçən ikiillik dövrdə qarşı tərəfə aydın olmalı idi ki, Azərbaycan qarşıya qoyduğu məqsədinə çatmadan geriyə dönən deyil. Qalib tərəf olmasına baxmayaraq, ölkəmiz beynəlxalq humanizm prinsiplərinə sadiqlik nümayiş etdirərək hələ də bu kimi məsələlərdə səbir və dözümlülük nümayiş etdirir. Halbuki Zəngəzur dəhlizinin açılması dənizlərə çıxışı olmayan bir ölkə üçün böyük nəfəslik rolunu oynayır. Amma erməni təfəkkürünə görə adıçəkilən dəhliz bu ölkəni "blokadaya salacaq", mövcud iqti-



sadi-siyasi durumunu daha da çətinləşdirəcək. Halbuki Azərbaycan dəfələrlə Ermənistanın bu layihədə iştirakının ona iqtisadi mənfəət gətirəcəyini bildirib. Görünən odur ki, erməni tərəfi hələ də bu sahədə qəti addımlar atmaq marağında deyil. Azərbaycanın isə güc yolu ilə də bu məsələni həll etmək imkanı var. Amma qeyd etdiyimiz kimi humanizm prinsipləri Azərbaycan üçün hər şeydən öndə gəlir. Bir də unutmaq olmaz ki, Zəngəzur dəhlizi bu gün artıq Rusiya, Çin, Mərkəzi Asiya ölkələrini Qərb bazarları ilə bağlayan ən əlverişli yoldur. Son dövrlərdə dünyada baş verən proseslər də bu dəhlizin aktuallığını artırır. Azərbaycan isə burada əsas faktorlardan biridir. Əgər ölkə rəhbəri Zəngəzur dəhlizinin kimsənin istəyindən asılı olmayaraq, açılacağını səsləndirirsə, bu, tezliklə baş verəcək. Elə reallıq da odur ki, Azərbaycan Prezidenti dediyi sözü qətiyyətlə yerinə yetirən nadir dövlət başçılarındandır.

**Səbuhi HƏSƏNOV**

## Naxçıvanda qeydiyyatda olanlar *"ASAN xidmət"* mərkəzlərində şəxsiyyət vəsiqələrini ala və dəyişdirə bilərlər




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan vətəndaşlara müraciət edib.

Yaşayış yeri üzrə Naxçıvan Muxtar Respublikasında qeydiyyatda olan vətəndaşlara "ASAN xidmət" mərkəzlərində şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi üzrə xidmətlər göstərilir.

Müvafiq xidmətlər barədə daha ətraflı:

- Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddətinin bitməsi ilə əlaqədar dəyişdirilməsi;
- Şəxsiyyət vəsiqəsinin itirilməsi, korlanması və oğurlanması halı ilə əlaqədar dəyişdirilməsi;
- Şəxsiyyət vəsiqəsinin ad, soyad, ata adının dəyişdirilməsi ilə əlaqədar dəyişdirilməsi;
- Şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısının (çipinin) korlanması ilə əlaqədar dəyişdirilməsi;
- Şəxsiyyət vəsiqəsinin qan qrupu, göz rəngi və boy ilə bağlı məlumatlarda dəyişiklik edilməsi ilə əlaqədar dəyişdirilməsi;
- Şəxsiyyət vəsiqəsinin yazılarında dəqiqsizlik müəyyən edilməsi ilə əlaqədar dəyişdirilməsi;
- Yaşayış yeri üzrə qeydiyyatda olan şəxslər haqqında arayışın verilməsi.

Qurum vətəndaşlardan əlavə vaxt itkisinin və məsrəflərinin qarşısını almaları, mərkəzlərdə növbə gözləmədən xidmətlərdən yararlanmaları məqsədilə "ASAN növbə" mobil tətbiqindən istifadə etmələrini xahiş edib.

Eyni zamanda mərkəzlərə birbaşa müraciət zamanı Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi 79 ünvanında yerləşən 7 saylı Bakı "ASAN xidmət" mərkəzinə üstünlük verməlari tövsiyə edilib.

**AZƏRTAC**

## Hər kəsi düşündürən məsələyə vətəndaş münasibəti...

*Ölkə Prezidenti cənab İlham Əliyevin ötən il dekabrın 22-də imzaladığı müvafiq Fərmana əsasən Naxçıvan Muxtar Respublikasının dövlət idarəçiliyi sistemində reallaşdırılan dəyişikliklər burada əvvəllər bir sıra sahələrdə mövcud olmuş nöqsanların aradan qaldırılmasına imkanlar açmaqdadır. Bu baxımdan xüsusi diqqətçəkən məsələ gündəlik ən çox istifadə olunan sərnişin nəqliyyatı ilə bağlıdır.*



Hamımıza yaxşı məlumdur ki, ötən ilin yaz aylarından Naxçıvan şəhər daxilində sərnişindaşıma fəaliyyəti göstərən avtobuslarda qiymət heç bir hüquqi əsası olmadan 40 qəpiyə qaldırılmışdı. Sərnişinlərin haqlı narazılıqlarına baxmayaraq, məsələ uzun müddət həllini tapmamışdı. Lakin aparılan islahatlarla bağlı həmin qaranlıq məqamın da üzərinə işıq düşdü. Belə ki, “Şərq qapısı” qəzetinin 29 dekabr 2022-ci il sayında işıq üzü görən “Naxçıvan şəhər sakinləri yeni avtobuslarına nə zaman sahib olacaqlar?” sərlövhəli tənqidi yazıdan sonra aidiyyəti dövlət qurumları tərəfindən məsələyə dərhal reaksiya verildi. Beləliklə də, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 14 mart tarixli Qərarı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasında müntəzəm avtobus marşrutlarında sərnişindaşıma xidmətlərinin tarifləri”nə əsasən sakinlər 40 qəpik deyil, 30 qəpik ödəməyə başladılar. Aradakı fərq bir sərnişin üçün kiçik görünsə də, bu məbləğ mütəmadi olaraq ictimai nəqliyyatdan istifadə edən, xüsusilə də aztəminatlı, çoxuşaqlı ailələrə görə böyük əhəmiyyət kəsb edir. Atalar demişkən dama-dama göl olar...

Bu günlərdə şəhərdaxili nəqliyyatdan mütəmadi olaraq istifadə edən sakinlərdən bir neçəsinin qiymət tənzimlənməsi ilə bağlı fikirlərini öyrənməyə çalışdıq. Yaşı 60-a yaxın olan ***Tərifə Məmmədova*** deyir ki, ölkəmizin hərtərəfli inkişafı nəticəsində yaşadığım Tumbul kəndi də abad yaşayış məntəqəsinə çevrilib. Yollarımız müasir infrastruktura uyğun salınıb, kənd sakinlərin gediş-gəlişinə xidmət edən marşrut xətti ilə təmin olunub. Ötən ilə qədər sərnişin avtobusu ilə sərfəli qiymətə vaxtlı-vaxtında gedəcəyimiz ünvana yola düşürdük. Lakin 2022-ci ilin yaz aylarından heç bir qanuni əsası göstərilmədən avtobuslara “gediş haqqı-40 qəpik” yazısı vuruldu. Biz də oxumuş, dünyagörmüş insanlarıq, yaxşı bilirik ki, belə bir məsələ ölkə üzrə ya “Tarif Şurası”nın ya da Nazirlər Kabinetinin Qərarına əsasən tənzimlənir. Lakin bunların heç biri olmadan, televiziyada, mətbuatda bu barədə əhaliyə məlumat verilmədən qiymət qaldırılması absurd məsələdir. Dəfələrlə bununla bağlı sürücülərdən hüquqi sənəd tələb etsək də, heç bir müsbət cavab ala bilmədik. “Hamı necə, biz də elə” prinsipi ilə mövcud vəziyyətlə barışmalı olduq. Övladı universitetdə təhsil alan, nəvələrini gündəlik məktəbə, bağçaya aparıb gətirən bir nənə kimi bu xoşagəlməz hal həm maddi, həm də mənəvi cəhətdən mənə pis təsir göstərdi. Ancaq şükürlər olsun ki, maddi sıxıntılara yol açan bu hal uzun sürmədi. Ölkə Prezidentinin muxtar respublikanın dövlət idarəçiliyində etdiyi dəyişiklikdən bir neçə gün sonra ictimai nəzarətin gücləndirilməsi sayəsində problem öz həllini tapdı. Mən özüm qiymətin tənzimlənməsi xəbərini bir televiziya kanalından eşitsəm də, nəvələrim ondan bir gün öncə internet saytından “Şərq qapısı” qəzetində dərc olunan tənqidi yazını və aidiyyəti təşkilatın həmin yazıya operativ cavabını göstərərək şad xəbəri vermişdilər. Sevindirici haldır ki, indi hər bir sərnişin avtobusdan qanunun tələbinə uyğun gediş haqqı ödəyərək istifadə edir...

***Xəyalə Vəliyeva*** ailəlidir, iki övladı var. Həyat yoldaşı da, özü də dövlət işində çalışır, hər gün övladlarının birini məktəbə, digərini isə bağçaya aparır. Ailə gündəlik azı 4-5 dəfə ictimai nəqliyyatdan istifadə etməli olur. Xəyalə xanım maddi vəziyyətlərinin yaxşılaşmasına xidmət edən bu addımı yüksək qiymətləndirərək deyir: – Artıq bir neçə ildir, ictimai nəqliyyatın imkanlarından ailəlikcə faydalanırıq. Qiymət münasib olduğu üçün tanıdığım onlarla ailə də mütəmadi olaraq avtobuslardan istifadə edir. Ötən ilin yazından heç bir əsaslı səbəb göstərilmədən gediş haqqının 40 qəpiyə qaldırılması, xüsusilə ailəsi böyük, təminatı az olanlar üçün çətinlik yaratmağa başladı. Sərnişinlər haqlı narazılıqlar etsə də, etika xatirinə məcburi şəkildə 40 qəpik ödəməli oldular. Başqa sözlə, vəziyyətlə barışmaqdan başqa çıxış yolları qalmadı. Böyüklərimizdən belə bir deyim var ki, haqq nazilər, amma üzülməz. Üzülmədi də. 2022-ci ilin sonlarına yaxın cənab Prezidentimizin muxtar respublikamızın gələcəyini düşünərək idarəetmə strukturu ilə bağlı etdiyi dəyişiklik məlum problemin də aradan qaldırılmasına imkan yaratdı. Sizin qəzetiniz vasitəsilə qaldırdığınız məsələyə dərhal müsbət reaksiya verildi və qiymətlər qanunamüvafiq formada tənzimləndi. İndi mənimlə bərabər, hər bir sərnişin bu addımı ürəkdən alqışlayır.

Tərtər rayonundan olan ***Paşa Adıgözəlov*** Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə 4-cü kursunda təhsil alır. O deyir: – Ali təhsil ocağında mənim kimi ölkəmizin digər bölgələrindən gələn onlarla tələbə oxuyur. Təbii ki, gündəlik ən çox istifadə etdiyimiz nəqliyyat vasitəsi sərnişin avtobuslarıdır. Marşrut xətlərinin əksəriyyətinin universitetə yaxın ərazidən keçməsi rahatlığımızı təmin etsə də, ötən ildən gediş haqqının artımı bizim də maddi vəziyyətimizə təsir göstərdi. İlk baxışdan artım cüzi miqdarda görünsə də, mütəmadi istifadə edən biz tələbələr üçün bu böyük fərq deməkdir. Şəxsən bir tələbə kimi mənim özümdə qalacaq bu məbləğ digər xərclərimi təmin etmək üçün vəsaitdir. Məhz bu səbəbdən qiymətlərin qanunamüvafiq şəkildə əvvəlki tarifə qaytarılması məni çox sevindirdi.

*Göründüyü kimi, şəhərdaxili marşrut avtobuslarından mütəmadi istifadə edən insanlarla söhbətimizdə hər kəs ümumi rifaha xidmət edən addımı ürəkdən alqışladı, öz təşəkkürünü bildirdi. Və bir daha aydın oldu ki, sakinlər muxtar respublikamızda həyata keçirilən islahatların onların rifahına xidmət edəcəyinə əmindirlər və bunun üçün üzərlərinə düşən vətəndaşlıq borclarını layiqincə yerinə yetirməyə hazırdırlar. Biz də ictimai nəzarət funksiyasında həmişə öncül olmuş mətbuatın nümayəndəsi kimi bundan sonra da qanunamüvafiq tədbirlərin həyata keçirilməsinə öz dəstəyimizi göstərməyə çalışacağıq...*

**✍ Nail ƏSGƏROV**

*Bu il Naxçıvan Muxtar Respublikasında “Yamac paraşütü” turizm məhsulu yaradılacaq.*

## “Yamac paraşütü” turizm məhsulu yaradılacaq



Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin statistika və sertifikatlaşdırma sektorunun aparıcı məsləhətçisi Ruslan Rəhimli bu barədə məlumat verərək bildirib ki, departamentin siyasəti ondan ibarətdir ki, istənilən sahədə yenilik mütləq mənada araşdırılır və sonra həmin siyasət həyata keçirilir. Hazırda “Yamac paraşütü” sahəsində müxtəlif işlər görülür. Ötən il müxtəlif paraşütçülərin muxtar respublikaya səfərləri təşkil olundu. İlk dəfə olaraq Ağbulaq İstirahət Mərkəzində və Əlincə qalasının yamacında sınaq uçuşları həyata keçirildi. Nəticədə, müəyyən olundu ki, muxtar respublika “Yamac paraşütü” üçün uyğun məkandır. Bugünkü “Yamac paraşütü” turizm məhsulunun yaradılması aktualdır.

**Xəbərlər şöbəsi**

## Qazi, şəhid ailələri və müharibə iştirakçılarının nəzərinə!



Azərbaycan Respublikası Hökumətinin dəvəti ilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasında yaşayan qazilər, şəhid ailələri və müharibə iştirakçıları üçün Bakı şəhərindən və Türkiyə Respublikasından dəvət olunmuş həkim psixoterapevtlər tərəfindən 9 yanvar 2023-cü il tarixdə saat $9^{00}$-dan başlayaraq psixoterapevtik müayinələr aparılacaq!

Bu kateqoriyadan olan şəxslər növbəli şəkildə müayinələrdə iştirak etmək üçün Fövqəladə Hallar Nazirliyinin ***112*** qaynar xətti ilə əlaqə saxlayaraq qeydiyyatdan keçməlidirlər!

Qeyd edək ki, həkim psixoterapevtlər müayinələrin aparılması üçün qazilər, şəhid ailələri və müharibə iştirakçılarının Naxçıvan Muxtar Respublika Xəstəxanasının 6-cı mərtəbəsində qəbul edəcəklər!

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Naxçıvan şəhəri, Qaraçuq kənd sakini Fərəcov Xaliq Məşdi oğlunun adına olan $89^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

*Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi **Məmmədəli Ələkbərov**la mövsümi xəstəliklərlə bağlı əhalini daha çox maraqlandıran, soyuqdəymə və qrip xəstəlikləri kimi tanınan kəskin respirator virus infeksiyaları haqqında həmsöhbət olduq. Məmmədəli həkim bildirdi ki, sözügedən infeksiyalar viruslar tərəfindən törədilən, tənəffüs yollarını zədələyən xəstəliklərdir. Əhali arasında bu xəstəliyi “soyuqdəymə” adlandırırlar. Alimlər 200-dən çox respirator viruslar aşkar ediblər. Bunlardan ən çox təsadüf olunan viruslar – paraqrip, adenovirus, rinoviruslardır. Xəstəliyə bütün yaşdan olan əhali arasında, xüsusilə körpələrdə daha çox rast gəlinir və 3 yaşdan başlayaraq aşağı enməyə meyil göstərir. Bu xəstəliyə ilin yaz-payız, habelə qış fəsillərində daha çox təsadüf edilir, şəhər yerlərində kənd yerlərinə nisbətən çox rast gəlinir. Hər il dünyada 2 milyona yaxın uşaq bu xəstəliyin ağırlaşmalarından ölür ki, bunun da 75 faizi pnevmoniyaların (ağciyərin iltihabı, sətəlcəm) payına düşür.*

*Həkim məsləhəti*

## Kəskin respirator virus infeksiyalarından necə qorunaq



İnfeksiyanın yayılma səbəblərindən danışan həkim bildirdi ki, xəstəlik mənbəyi xəstə insanlardır. İnfeksiyanın yayılması hava damcı yolu ilədir. Xəstə adam asqırdıqda və ya öskürdükdə selik damcılar vasitəsilə bu viruslar ətrafa yayılır və sağlam adamın yuxarı tənəffüs yollarına düşüb onu xəstələndirə bilər. Virus, həmçinin məişət əşyaları (qab, dəsmal, qapı dəstəyi) vasitəsilə də yayıla bilər. Ancaq onu qeyd etmək lazımdır ki, bu viruslar xarici mühitdə çox davamsızdır. Otaq temperaturunda bir neçə saat ərzində və günəş şüalarının təsirindən tez məhv olur.

Xəstəliyin əsas əlamətləri zökəm, quru öskürək və tənəffüsün çətinləşməsi, ümumi zəiflik, əzələlərdə və oynaqlarda ağrılar, burun və udlaq nahiyəsində qıcıqlanma, quruluq, baş ağrıları, hərarətin yüksəlməsi kimi hallarla müşahidə olunur. Hərarət 37,2 dərəcədən 39, hətta 40 dərəcəyədək qalxa bilər. Hərarət orqanizmin müdafiə reaksiyası olub qanda virusu neytrallaşdıran xüsusi maddələrin yaranmasına imkan verir. Ona görə də xəstədə 38,5 dərəcəyə qədər hərarəti aşağı salmaq məsləhət görülmür. Ancaq hərarət 38 dərəcədən yuxarı olduqda onu endirmək üçün təcili tədbirlər görmək lazımdır, əks halda, xüsusilə uşaqlarda qıcolmalar ola bilər.

İlk müdaxilə üçün həkimin tövsiyəsi isə bu oldu ki, uşaqlarda hərarəti salmaq üçün fiziki müalicə metodlarından (uşağın artıq paltardan azad edilməsi, bədənin ılıq su ilə silinməsi, ayağa isti vannaların edilməsi) istifadə etmək olar. Dərman preparatlarından isə ən çox parasetamoldan istifadə olunur. 12 yaşa qədər uşaqlara “Aspirin” vermək məsləhət görülmür. Yadda saxlamaq lazımdır ki, kəskin respirator virus infeksiyaları ağırlaşma verməyibsə, antibiotiklərdən istifadə etmək məsləhət görülmür, çünki antibiotiklər virusa təsir etmir.

Kəskin respirator virus infeksiyalarına yoluxmuş xəstələrin hansı şəraitdə müalicə almaları barədə məsləhət verən Məmmədəli həkim qeyd etdi ki, xəstəliyin müalicəsi onun ağırlıq dərəcəsindən asılıdır. Yüngül, hərarətsiz soyuqdəymənin dərman müalicəsinə ehtiyacı yoxdur və yaxşı qulluq edildə dərmansız da sağalır. Xəstə izolyasiya olunmalı, yəni ayrıca otaqda yerləşdirilməlidir. Həmçinin xəstəyə qulluq edənlər maskadan istifadə etməli, isti içkilər, ümumiyyətlə, çox maye qəbul etməli, xəstəni isti saxlamalı, ancaq həddən artıq bükməməli, uşağın burnunu təmizləməli, xüsusilə ana südü ilə qidalandırmazdan və yatmazdan əvvəl. Bu nəfəsalmaya kömək edir, C vitamini ilə zəngin ərzaqlardan istifadə etməli. Çünki C vitamini insanın müqavimətini artırır. Körpə südəmər uşaqlarda bu xəstəlik olduqda isə onları ana südü ilə tez-tez qidalandırmaq lazımdır. Bunlardan başqa xalq arasında istifadə olunan müalicə üsullarından: döş qəfəsinə xardal yaxması qoyulması, ayaqlara isti vanna edilməsi və digər üsullardan istifadə faydalı olar.

“Bəs xəstəliyin profilaktikası, yəni qarşısını almaq üçün nə etmək lazımdır?” – sualıma isə həkim belə cavab verdi: – Hava şəraitinə uyğun geyinmək lazımdır. Ona görə ki, bədənin soyuması virus infeksiyasına müqaviməti zəiflədir. Vitamin C ilə zəngin qidalardan istifadə edilməlidir. İlin soyuq vaxtlarında hər gün bir diş sarımsaq yemək məsləhət görülür. Yaşadığınız otağın havasını 15 dəqiqə ərzində dəyişin. Hamı, xüsusilə yaşlı şəxslər, yenidoğulmuşlar, ağır xroniki xəstəliyi olan şəxslər infeksiya mənbəyindən tədric olunmalıdır.

Bəzi hallarda kəskin respirator virus infeksiyaları ağır keçib, ağırlaşmalar verə bilər. Bunlardan otitləri (orta qulağın iltihabı), sinusitləri (alın və burun ciblərinin iltihabı), pnevmoniyaları (sətəlcəm), meningitləri (beyin qişalarının iltihabı) göstərmək olar. Ona görə də yaxşı olar ki, bu infeksiyalara yoluxma halları zamanı xəstələr həkimə müraciət etsinlər.

Bəli, sağlamlığımızın qorunması ilkin mərhələdə öz əlimizdədir. Lakin bəzən özümüzdən asılı olmayan səbəblərdən sağlamlığımız təhlükə altında qalarsa, o zaman vaxtında mütəxəssis həkimə müraciət edək. Sağlamlığımızı qoruyaq ki, ətrafımızdakıların da sağlamlığına təhlükə yaratmayaq!

**Ülviyyə HACIYEVA**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 5